Məktəbli ensiklopediyası

# Planetin qəribə quşları



Kitab Qanun Nəşriyyatı redaksiya
heyəti tərəfindən çapa hazırlanıb.

**PLANETİN QƏRİBƏ QUŞLARI**
Bakı, Qanun Nəşriyyatı, 2024, 32 səh.

Yaş qrupu: 8-12
Ölçü: 165x235 mm
Cild: qalın
Çapa imzalandı: 07.05.2024

Korrektor: Elsevər Murad
Texniki redaktor: Asifə Əfəndiyeva
Mətn dizaynı: Rahilə Şamilqızı
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-26-449-4

© Qanun Nəşriyyatı, 2013; 2024

# *Mündəricat*


4 Hansı quş ən böyükdür?
5 Hansı quş daha sürətlə uçur?
5 Hansı quş ən kiçikdir?
6 Hansı heyvanlarda lələk var?
7 Hansı quşların ayaqlarında barmaq var?
8 Uçmağı bacarmaq yaxşıdırmı?
9 Quşlarda neçə lələk var?
10 Quşlar öz lələklərini təmizləyirmi?
11 Hansı quşlar acgözdür?
12 Hansı quşun dimdiyi maqqaş kimidir?
12 Hansı quşun dimdiyi kəlbətin kimidir?
13 Hansı quşun dimdiyi ələk kimidir?
13 Hansı quşun dimdiyi nizə kimidir?
14 Hansı qartal ən böyükdür?
15 Hansı quş səssiz uçur?
16 Dalğalı tutuquşular nə üçün başlarını əyir?
16 Hansı quş qulaqları ilə "görür"?
17 Hansı quş ovunu iyləməklə tapır?
18 Hansı quş ən bəzəklidir?
18 Quşlar nə üçün oxuyurlar?
19 Hansı quş qorxu altında "işləyir"?
20 Hansı quş mahir toxucudur?
20 Hansı quş kürt düşmür?
21 Hansı quş şəhərdə dəniz sahilində yaşayır?
22 Quşlarda nə vaxt dişlər olur?
22 Hansı quşun yumurtası daş-kəsəyə oxşayır?
23 Hansı quş paraşütsüz tullanır?
24 Qazlar qışda nə üçün köçürlər?
24 Köçüb getmək vaxtını quşlar haradan bilirlər?
25 Quşlar yolu necə tapırlar?
26 Hansı quş yer kürəsini dövrə vurur?
26 Hansı quş suda qaçmağı bacarır?
27 Hansı quşların kisələri var?
27 Hansı quş palçıqda şappıltı salmağı sevir?
28 Pinqvinlər nə üçün donmurlar?
29 Səhra quşları istiliyə necə dözür?
30 Quşları nə üçün qorumaq lazımdır?
31 Lələklərlə kim rəqs edir?
32 Göstərici

# Hansı quş ən böyükdür?



Dəvəquşu hazırda yaşayan bütün quşlardan ən böyüyüdür. Onun boyu 2,5 metrə çatır: yəni əgər ayaq üstə durarsa, başı tavana çatar. Bundan əlavə, dəvəquşu həm də ən ağır quşdur. Onun çəkisi yaşlı poni (kiçik at) qədərdir.

* Quşlar arasında qanadlarını ən geniş açan səyyah albatrosdur – 3, 4 metrə qədər.





**Dəvəquşu**

* Dəvəquşular uçmağı bacarmır. Lakin onlar saatda 72 kilometr sürətlə qaça bilirlər; yəni aslan və digər vəhşi heyvanlara nisbətən daha sürətlə hərəkət edirlər.

# Hansı quş daha sürətlə uçur?

Qaqa (ördəklər fəsiləsindən Şimal dəniz quşu) saatda 100 kilometr sürətlə uçur. Lakin uçuş sürətinə görə rekordsmen şahindir. O, ovunun üzərinə şığıyan vaxt sürətini saatda 200 kilometrdən çox artırır.





Qaqa

* Quşlar arasında ən sürətli üzgüçü papuan pinqvinidir. O sürətini saatda 27 kilometrə qədər çatdıra bilir. Yəni bu quş üzgüçülük üzrə dünya çempionundan daha sürətlidir.



Şahin





* Afrika davdaq quşu uçan quşlar arasında ən ağırıdır. Bəzən o, çətinliklə yerdən qalxır.



# Hansı quş ən kiçikdir?

Tropik meşələrdə kəpənək boyda və hətta ondan da kiçik kolibri (milçək quşu) yaşayır. Kuba kolibri – eşşəkarısı böyüklükdə olur. Onu həm də kolibri-milçək adlandırırlar. Yer üzündə ən kiçik quşdur. Onlar çətinlik çəkmədən karandaşın ucuna otura bilərlər.



